# ALİ VƏ ORTA İXTİSAS TƏHSİLİ SAHƏSİ ÜZRƏ 2012-Cİ İLDƏ GÖRÜLMÜŞ İŞLƏRƏ DAİR HESABAT

**A**li və orta ixtisas təhsili şöbəsinin 2012-ci il üçün iş planında aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

*- Ali və orta ixtisas təhsili müəssisələrinə 2012-ci il üçün tələbə qəbulu planının layihəsinin hazırlanması;*

*- Ali təhsil müəssisələrində 2011/2012-ci tədris ilinin qış və yay imtahan sessiyalarının və buraxılış imtahanlarının nəticələrinin təhlili;*

*- Ali təhsil müəssisələrində kredit sisteminin tətbiqi vəziyyətinin təhlili;*

*- Ali və orta ixtisas təhsili müəssisələrinin fəaliyyətini tənzimləyən normativ sənədlərin hazırlanması, müzakirəsi və təsdiqə təqdim olunması işinin davam etdirilməsi;*

*- Bakalavriat səviyyəsinin ixtisasları üzrə təhsil proqramlarının təkmilləşdirilməsi; Magistr təhsil proqramlarının hazırlanması və təsdiqi;*

*- «2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı»nda 2011-ci il üçün nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi;*

*- Orta ixtisas təhsili müəssisələrinin veb-portalının yaradılması;*

*- «Təhsilin əsasları» fənninin tətbiqi ilə bağlı treninqlərin və monitorinqin keçirilməsi; "İbtidai sinif müəllimi" hazırlanan digər ali məktəblərdə də bu fənnin tətbiqi ilə bağlı tədbirlər görülməsi;*

*- Dünya Bankının vasitəsilə Yaponiya hökümətindən alınmış qrant hesabına ali təhsilin islahatı üzrə layihənin hazırlanması;*

*- Təhsil sahəsində Azərbaycan Respublikasının «Milli ixtisas dərəcələri çərçivəsi»nin (MİDC) hazırlanmasında iştirak etmək;*

*- Ali təhsildə yeni maliyyələşmə mexanizminin tətbiqi vəziyyətinin təhlili;*

*- Orta ixtisas təhsili müəssisələrində tələbələrin biliyinin qiymətləndirilmə-sində çoxballı sistemin tətbiqi barədə Əsasnamə»yə uyğun olaraq eksperimentin davam etdirilməsi və onun əhatə dairəsinin genişləndirilməsi;*

*- 2011/2012-ci tədris ilindən orta ixtisas təhsili müəssisələrində kredit sisteminin tətbiqi ilə bağlı tədbirlərin həyata keçirilməsi;*

*- Ali və orta ixtisas təhsilinin problemlərinə dair konfrans, seminar və treninqlərin keçirilməsi;*

*- Təhsil Nazirliyinin korrupsiyaya qarşı mübarizə üzrə fəaliyyət planında ali və orta ixtisas təhsil səviyyəsində cari ildə nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinin təşkili və s.*

2012-ci ildə ali və orta ixtisas təhsilinin təkmilləşdirilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirilmişdir.

## Ali təhsil üzrə

### I. Əsas statistik göstəricilər:

2012-ci ilin əvvəlinə ölkəmizdə 51 ali məktəb fəaliyyət göstərmişdir. Onlardan 36-sı dövlət, 15-i qeyri-dövlət ali təhsil müəssisəsidir.

Təhsil Nazirliyinin tabeliyində 20 ali təhsil müəssisəsi fəaliyyət göstərmişdir.

2012-ci ildə respublikamızın ali məktəblərində 123530, o cümlədən Təhsil Nazirliyinin tabeliyində olanlarda 99924 nəfər tələbə təhsil almışdır. Onlardan magistratura səviyyəsində müvafiq olaraq 8683 və 8272 nəfər olmuşdur.

Ümumi tələbələrdən ödənişli əsaslarla təhsil alanlar respublika üzrə: 68872, Təhsil Nazirliyi üzrə 60809 nəfər təşkil edilmişdir.

2012-ci ildə ali məktəblərdə işçilərin sayı 26404 (professor-müəllim heyəti 12864), o cümlədən Təhsil Nazirliyinin tabeliyində olan ali təhsil müəssisələrində işləyənlərin sayı 20163 nəfər (professor-müəllim heyəti 9857) təşkil etmişdir.

Ali təhsil sistemində 1073 (Təhsil Nazirliyi 831) elmlər doktoru, 5103 (Təhsil Nazirliyi 3713) elmlər namizədi çalışmışdır.

Ali məktəblərə 30784 (Təhsil Nazirliyinin tabeliyində olanlara 24865) nəfər tələbə qəbul olunmuşdur. Onların 3792 (Təhsil Nazirliyinin tabeliyində olanlar 3561) nəfərini magistrlər təşkil edir.

2011/2012-ci tədris ilində Təhsil Nazirliyinin tabeliyində olan ali məktəblərin bakalavriat səviyyəsini respublika üzrə 26056, Təhsil Nazirliyi üzrə 22888, magistratura səviyyəsini müvafiq olaraq 3196 və 3112 nəfər məzun bitirmişdir.

## II. Görülmüş işlər

Hesabat ilində ali təhsil sahəsində aparılan işlər Azərbaycan Respublikası Prezidentinin 22 may 2009-cu il tarixli 295 nömrəli Sərəncamı ilə təsdiq olunmuş “2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı”na və onun həyata keçirilməsi üçün hazırlanmış müvafiq Fəaliyyət Planına uyğun olmuşdur. Belə ki, cari ildə ali təhsil müəssisələrində İslahat Proqramına uyğun olaraq idarəetmənin təkmilləşdirilməsi, idarəetmədə yeni informasiya kommunikasiya texnologiyalarının geniş tətbiqi istiqamətində tədrisin təşkilini təmin edən müasir tipli qurumların (qiymətləndirmə mərkəzləri, qeydiyyat ofisi, karyera mərkəzləri və s.) yaradılması, zəruri dərslik və dərs vəsaitlərinin, interaktiv tədris kurslarının elektron versiyalarının hazırlanması işi davam etdirilmişdir.

Ali təhsildə aparılan islahatların, ali təhsilin insan kapitalının formalaşmasında rolunu və əhəmiyyətini respublika ictimaiyyətinə çatdırmaq məqsədilə 2012-ci ildə Təhsil Nazirliyinin «Ali təhsil və cəmiyyət» elmi-metodik jurnalı təsis edilmiş və onun üç nömrəsi nəşr olunmuşdur.

2012-ci ildə ali təhsil sahəsində əsasən hüquqi-normativ bazanın möhkəmləndirilməsi, təhsilin məzmununun və idarə olunmasının təkmilləşdirilməsi, ali təhsil sahəsində keyfiyyətin təmin olunması, təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, ali təhsilin maliyyələşdirilməsində yeni mexanizmin və tədrisdə müasir texnologiyaların tətbiqi istiqamətləri üzrə müvafiq işlər görülmüşdür.

Belə ki, **A**zərbaycan Respublikası Prezidentinin «Təhsil haqqında» Qanunun tətbiq edilməsi barədə 5 sentyabr 2009-cu il tarixli 156 saylı Fərmamına və buna müvafiq Nazirlər Kabinetinin 17 sentyabr 2009-cu il tarixli 247 saylı Sərəncamına uyğun olaraq **normativ-hüquqi sənədlərin hazırlanması** işi 2012-ci ildə də davam etdirilmişdir.

“Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları” hazırlanaraq təsdiq üçün Nazirlər Kabinetinə təqdim olunmuşdur. Bundan əlavə “Təhsil müəssisələrində təhsilalanların attestasiyasının, o cümlədən yekun attestasiyasının aparılması və təhsilalanların biliyinin yenidən qiymətləndirilməsi” Qaydalarını hazırlamaq üçün ali təhsil sahəsi üzrə təkliflər verilmişdir. Beynəlxalq ekspertlərin və milli

məsləhətçilərin iştirakı ilə Təhsil Nazirliyi tərəfindən hazırlanmış "Ömürboyu Təhsil üzrə Azərbaycan Respublikasının Kvalifikasiyalar Çərçivəsi" layihəsinə təkliflər verilmişdir.

İxtisas (ixtisaslaşma) üzrə magistr hazırlığının məzmun standartlarını, tədris olunan fənləri, dərs yükünü müəyyənləşdirən Təhsil Proqramının strukturu hazırlanmış və nazirliyin 22 fevral 2012-ci il tarixli, 258 №-li əmri ilə təsdiq edilmişdir.

Həmin strukturda ali təhsilin magistratura səviyyəsində hazırlanacaq mütəxəssislərin kompetensiyalarına qoyulan tələblərə uyğun 145 ixtisas üzrə Təhsil Proqramları hazırlanmış, nazirliyin 31 avqust 2012-ci il tarixli əmri ilə təsdiq edilmiş və tətbiq olunmuşdur. Ali təhsilin bakalavriat səviyyəsində kompetensiyalara əsaslanan yeni nəsil Təhsil Proqramlarının hazırlanmasına başlanılmışdır.

Hesabat ilində həmçinin ali təhsil müəssisələrində rezidenturada həkim-mütəxəssis hazırlığını təmin edən Təhsil Proqramlarına təkliflər verilmişdir.

İş planında kollegiyada müzakirəsi nəzərdə tutulan «Ali təhsil müəssisələrində yeni maliyyələşmə mexanizminin tətbiqi: görülən işlər, problemlər və nəticələr barədə» məsələ ilə bağlı monitorinqlər aparılmış və müvafiq arayış hazırlanmışdır.

2012-ci il dekabrın 1-də təhsil nazirinin yanında ali təhsil müəssisələrinin rəhbərləri ilə birgə keçirilən müşavirə bu məsələyə həsr olunmuşdur.

Müşavirədə yeni maliyyələşmə mexanizminin tətbiqi, ali təhsil müəssisələrində işçilərin əmək haqqını müəyyənləşdirən normativ sənədin ləğv edilməsi və bu prosesin əmək qanunvericiliyinin tələblərinə uyğun işçi ilə işəgötürən arasında bağlanmış müqaviləyə əsasən tənzimlənməsi, ödənişli əsaslarla tələbə qəbulu planının sərbəstləşdirilməsi, ayrı-ayrı ali təhsil müəssisələrinə müsabiqənin təhsilalma formaları (əyani və qiyabi) və bölmələr (azərbaycan və rus) üzrə birgə aparılması məsələləri, bununla əlaqədar yaranmış problemlər və qarşıda duran vəzifələr geniş müzakirə edilmişdir.

Müzakirə olunan problemlərin həlli ilə bağlı irəli sürülmüş təkliflər ümumiləşdirilmiş və Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbərinə göndərilmişdir.

Cari ildə ali təhsil müəssisələrində yeni (adambaşına) maliyyələşmə mexanizminin tətbiqi davam etdirildiyindən bakalavriat və magistratura səviyyələrinə tələbə qəbulu planı dövlət sifarişi nəzərə alınmaqla tərtib olunmuş və Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edilmişdir.

Eyni zamanda 2013-2017-ci illər üçün bakalavriat və magistratura səviyyələrinə dövlət sifarişi əsasında tələbə qəbulunun proqnozuna dair təkliflər verilmişdir.

Ali məktəblərdə kredit sisteminin tətbiqi vəziyyətinin monitorinqi aparılmış, nəticələr təhlil olunmuş, müvafiq arayış hazırlanmış və nazirlikdə müzakirə olunmuşdur.

**A**li təhsil müəssisələrində qış və yay imtahan sessiyalarının təşkili və gedişi əvvəlki illərdə olduğu kimi, 2012-ci ildə də diqqət mərkəzində saxlanılmışdır. Belə ki, 2011/2012-ci tədris ilinin qış və yay imtahan sessiyalarının mütəşəkkil keçirilməsi üçün Təhsil Nazirliyinin müvafiq əmrləri ilə nazirlikdə Mərkəzi Operativ Qərargah (MOQ), «Qaynar xətt», ali və orta ixtisas təhsili müəssisələrində müvafiq qərargahlar yaradılmış, yol verilmiş neqativ halların aradan qaldırılması istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir. İmtahanların gedişinə nəzarət etmək üçün qeyri-hökumət təşkilatlarının nümayəndələri bu işə cəlb edilmişdir.

Bəzi ali məktəblərdə (məsələn, ADPU, GDU) semestr imtahanları və yekun dövlət attestasiyaları test üsulu ilə kompüter vasitəsilə aparılmışdır.

2011/2012-ci tədris ilində Azərbaycan Dillər Universitetində buraxılış yekun Dövlət Attestasiyasının məzunların təlim müddətində tədris, elmi və ictimai fəaliyyətini əks etdirən hesabatların təqdimatı formasında həyata keçirilməsi işi davam etdirilmişdir.

Şöbə tərəfindən qış və yay imtahan sessiyalarının nəticələrinə dair hesabatlar hazırlanmış, təhsil müəssisələrinin tədris işləri üzrə prorektorlarının və tədris şöbələri müdirlərinin iştirakı ilə Ali və orta ixtisas təhsili şöbəsində müzakirə olunmuş və müvafiq qərarlar qəbul edilmişdir.

Bununla yanaşı ali və orta ixtisas təhsili şöbəsi tərəfindən təhsil müəssisələrindən alınmış təkliflər əsasında hər bir ali məktəbin bakalavriat səviyyəsi üzrə dövlət attestasiya komissiyalarının, magistraturada İxtisaslaşdırılmış Şuraların sədrlərinin təsdiqi barədə əmrlər hazırlanmış, dövlət attestasiyalarının və buraxılış işlərinin müdafiəsinin monitorinqi keçirilmişdir.

**Ş**öbənin əməkdaşları xarici ölkələrin ali təhsil sahəsində verdiyi ixtisasların tanınması və onların Azərbaycan Respublikasında qüvvədə olan təhsil standartlarına uyğunluğunun müəyyən edilməsi (nostrifikasiyası) prosedurunda ekspert kimi iştirak etmişlər.

**M**üəllim hazırlığı məsələsi əvvəlki illərdə olduğu kimi, hesabat ilində də diqqət mərkəzində saxlanılmışdır.

Belə ki, Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş «2008-2015-ci illər üçün Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının konsepsiya və strategiyasının həyata keçirilməsi üzrə tədbirlər planı»nda 2012-ci il üçün nəzərdə tutulan tədbirlər əsasən həyata keçirilmişdir. Bu işdə «**Fasiləsiz pedaqoji təhsil üzrə koordinasiya şurası**» öz tövsiyələri ilə Təhsil Nazirliyinə yaxından köməklik göstərmişdir.

Dünya Bankının dəstəyi ilə həyata keçirilən Təhsil Sektorunun İnkişaf Etdirilməsinin (TSİL-in) «**Müəllim hazırlığı» alt komponenti çərçivəsində** ali təhsilin bakalvriat səviyyəsində ibtidai sinif müəllimlərinin hazırlığı üzrə «**Çərçivə kurikulumu**»nun tətbiqi 2012-ci ildə eksperiment şəklində 3 pilot ali təhsil müəssisəsində (Azərbaycan Dövlət Pedaqoji Universiteti, Gəncə Dövlət Universiteti və Azərbaycan Müəllimlər İnstitutu) davam etdirilmişdir.

Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Müəllimlər İnstitutu, Gəncə Dövlət Universitetində «Çərçivə kurikulumu»na daxil edilmiş «Təhsilin əsasları» fənnini tədris edən professor-müəllim heyəti üçün 2011/2012-ci tədris ilində də treninqlər keçirilmiş, dinləyicilərə müvafiq sertifikatlar verilmişdir.

İlkin müəllim hazırlığının məzmununu təkmilləşdirmək məqsədilə «Təhsilin əsasları» fənninin bir dövr (4 il) üçün tədrisi vəziyyətinin monitorinqi keçirilmiş və onun nəticələri müzakirə olunaraq müvafiq qərarlar qəbul edilmişdir.

**Ə**vvəlki illərdə olduğu kimi 2011/2012-ci tədris ilində də ali məktəblərə qəbul olunmuş tələbələrə **Prezident təqaüdünün** verilməsi haqqında ölkə Prezidentinin sərəncamı olmuşdur. Həmin sərəncama uyğun olaraq 102 nəfər tələbəyə Prezident təqaüdünün verilməsi barədə nazirliyin müvafiq əmri olmuş və həmin əmr icra üçün ali təhsil müəssisələrinə göndərilmişdir.

Hesabat ilində qış və yay imtahan sessiyalarında yuxarı kurslarda (II-VIII semestrlərdə) təhsil alan Prezident təqaüdçülərinin müvəffəqiyyət göstəriciləri barədə ali məktəblərin təklifləri alınmış və təqaüdün verilməsinin davam etdirilməsi haqqında nazirliyin müvafiq əmrləri olmuşdur.

**D**ünya Bankının vasitəsilə **Yaponiya hökuməti tərəfindən ayrılmış qrant hesabına** beynəlxalq və milli məsləhətçilər cəlb olunmaqla Ali təhsil islahatı layihəsi hazırlanmış və buna müvafiq vəsaitin ayrılması üçün hökumətə təqdim edilmişdir.

**«Ali təhsilin keyfiyyətinin təmin edilməsi» (ATKT)** istiqaməti üzrə layihənin hazırlanmasına dair təkliflərin formalaşdırılmasında beynəlxalq və milli məsləhətçilərlə birgə şöbənin əməkdaşları da iştirak etmişlər.

**«Qrantların ayrılması mexanizminin müəyyənləşdirilməsi»** istiqaməti üzrə də iş davam etdirlimişdir. Bu işə beynəlxalq və milli məsləhətçilər də cəlb olunmuşlar.

Ali təhsil müəssisələrinin maddi-texniki bazalarının möhkəmləndirilməsi istiqamətində də işlər davam etdirmişdir. Bir sıra universitetlərdə əsaslı təmir işləri həyata keçirilmiş, yeni kabinet və laboratoriyalar yaradılmış, onlar İKT, müasir cihaz və avadanlıqlarla təchiz olunmuşlar.

Ali təhsil müəssisələrinin reytinqini müəyyənləşdirən metodika təkmilləşdirilmiş və yeni metodikaya uyğun ali təhsil müəssisələrinin reytinq cədvəli tərtib edilmişdir.

**Ş**öbənin əməkdaşları təhsil ensiklopediyasına dair məlumatların hazırlanmasında yaxından iştirak etmişlər.

**H**esabat dövründə şöbə əməkdaşlarının iştirakı ilə aşağıdakı **respublika və beynəlxalq konfranslar** keçirilmişdir:

- *Azərbaycan Müəllimlər İnstitutunda «Müəllim hazırlığının müasir problemləri: təhsildə elmi və texnoloji innovasiyalar» mövzusunda Beynəlxalq elmi-praktik konfrans. 26-28 noyabr 2012.*
- *Azərbaycan Dillər Universitetində «Xarici dillərin tədrisinin aktual problemləri» mövzusunda V Respublika konfransı. May – 2012.*
- *Sumqayıt Dövlət Universitetində «Filologiyanın aktual problemləri: axtarışlar və perspektivlər». AMEA-nın Ədəbiyyat İnstitutu ilə birgə 30 aprel 2012.*
- *Sumqayıt Dövlət Universitetində «İnnovasiyalı inikşafın sosial-iqtisadi problemləri» Beynəlxalq konfransı. AMEA-nın İqtisadiyyat İnstitutu ilə birgə 28-29 dekabr 2012.*
- *Azərbaycan Dillər Universitetində "Tətbiqi dilçiliyin müasir problemləri" mövzusunda Beynəlxalq konfrans. Noyabr 2012.*
- *Magistrantların XII respublika Konfransı. Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə birgə 26-27 aprel 2012.*
- *Azərbaycan Memarlıq və İnşaat Universitetində «Müasir inşaatın nəzəri və praktiki problemləri»nə həsr olunmuş Beynəlxalq elmi-praktiki konfrans 29-30 noyabr 2012.*
- *Naxçıvan Dövlət Universitetində «Naxçıvan: ilkin şəhər və Düzdağ» mövzusunda Beynəlxalq simpozium. 27 iyul 2012.*
- *Naxçıvan Dövlət Universitetində «Şəhriyar – müasir dövrün böyük şairi» mövzusunda beynəlxalq elmi konfrans. 6 oktyabr 2012.*
- *Naxçıvan Müəllimlər İnstitutu ilə birgə «Ümumi orta təhsilin problemləri» mövzusunda beynəlxalq elmi konfrans. 24 noyabr 2012.*
- *Bakı Dövlət Universitetində AR TN-nin və digər ali təhsil universitetləri nümayəndələrinin, Avropa Birliyinin təhsil üzrə ekspertlərinin (Karl Holm, The Finnish High education, Jan de Croof, European Education and Law Assosiation, Stahle Lennart, Swedish National Agency for Higher Education) iştirakı ilə Beynəlxalq Seminar. 31 yanvar 2012.*
- *Bakı Dövlət Universitetində Avropa Birliyinin təhsil üzrə ekspertlərinin, İtaliyanın Genoa Universitetinin, Qafqaz, Odlar Yurdu, Xəzər və Azərbaycan Tibb Universitetlərinin, Təhsil Nazirliyinin nümayəndələrinin iştirakı ilə "Tədris Proqramlarının keyfiyyətinin təminatı üzrə sənədləşmə" adlı Beynəlxalq Seminar. 13-14 dekabr 2012.*
- *Azərbaycan Dövlət İqtisad Universitetində Türkiyə Cümhuriyyəti Hacettepe Universiteti, Qazaxıstan Respublikasının Ahmet-Yasəvi Universiteti və Qırğızıstan Respublikasının Türk-Manas Universitetinin birgə təşkilatçılığı ilə "Dünya İqtisadiyyatının İnkişaf Paradiqması: Bazar və Sonrası" mövzusunda I Avrasiya Sosial Elmlər Forumu. 18-19 oktyabr 2012*

- *Azərbaycan Dövlət İqtisad Universitetində "I Biznes İnzibatçılığı və Korporativ Sosial Məsuliyyət" mövzusunda Beynəlxalq Elmi Konfrans. 23-25 noyabr 2012*

## Orta ixtisas təhsili

### I. Əsas statistik göstəricilər:

2012-ci hesabat ilində Azərbaycanda 58 orta ixtisas təhsili məktəbi (kollec) fəaliyyət göstərmişdir. Bunlardan 45-i Təhsil Nazirliyinin, 7-si Səhiyyə Nazirliyinin, 2-si Mədəniyyət və Turizm Nazirlyinin 1-i Azərittifaqın, 1-i Fövqəladə Hallar Nazirliyinin tabeliyində olmuşdur.

Orta ixtisas təhsili müəssisələri respublikanın regionları üzrə, aşağıdakı kimi paylanmışdır: Bakı şəhərində 23, Naxçıvanda 3, Sumqayıtda 3, Gəncədə 4, Şəkidə 4, Şuşada (hal-hazırda Bakı şəhərində yerləşən) 2, Mingəçevirdə 2, Şamaxıda 2, Ağdamda 2, Şirvanda 1, Bərdədə 1, Zaqatalada 1, Ağdaşda 1, Qazaxda 1, Lənkəranda 1, Tovuzda 1, Sabirabadda 1, Astarada 1, Ağcabədidə 1, Qubada 1, Göyçayda 1 orta ixtisas təhsili müəssisəsi vardır.

Kolleclərdən 16-sı texniki və texnoloji, 18-i iqtisadiyyat və humanitar, 6-sı pedaqoji, 10-u mədəniyyət və incəsənət, 7-si tibb profillidir.

2012-ci ildə ölkəmizin orta ixtisas təhsili müəssisələrində 115 ixtisas üzrə 53236 (Təhsil nazirliyinin tabeliyində 45775) tələbə təhsil almışdır. Onların təlim-tərbiyəsi ilə 6535 (Təhsil Nazirliyi üzrə 5125) müəllim məşğul olmuşdur.

2011/2012-ci tədris ilində Təhsil Nazirliyinin tabeliyində olan orta ixtisas təhsili müəssisələrinə 14171 nəfər tələbə qəbul olunmuşdur.

Həmin ildə orta ixtisas təhsili müəssisələrini 14117 nəfər, o cümlədən Təhsil Nazirliyinin tabeliyində olan təhsil müəssisələrini 11721 nəfər məzun bitirmişdir.

### II. Görülmüş işlər

«Təhsil haqqında» Azərbaycan Respublikası Qanununun 21-ci maddəsinə görə orta ixtisas təhsilinin əsasən kolleclərdə, ali təhsil müəssisələrinin nəzdində yaradılan müvafiq stukturlarda həyata keçirilməsi və məzunlara subbakalavr dərəcəsinin verilməsi nəzərdə tutulmuşdur. Bununla bağlı əvvəlki illərdə bir sıra normativ-hüquqi sənədlər işlənib hazırlanmış və təsdiq olunmuşdur, 2012-ci ildə təhsilin bu pilləsinin fəaliyyətini tənzimləyən yeni normativ sənədlərin hazırlanması işi davam etdirilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 yanvar, 2010-cu il tarixli, 6 nömrəli qərarı ilə təsdiq edilmiş «2010-2013-cü illərdə Azərbaycan Respublikasının orta ixtisas təhsili sistemində islahatlar üzrə Tədbirlər Proqramı»nın icrası ilə bağlı Təhsil Nazirliyinin Fəaliyyət Planına əsasən aşağıdakı işlər yerinə yetirilmişdir:

- Fəaliyyət planının 2.2.3. bəndinə əsasən ixtisaslar (proqramlar) üzrə Avropa Kredit Transferi Sisteminin tələblərinə uyğunlaşdırılmış yeni təhsil proqramlarının tətbiqi davam etdirilmişdir.
- 2.3.2 bəndinə əsasən ixtisaslar üzrə təhsil proqramlarına uyğun təhsil resurslarının (dərsliklərin, dərs vəsaitlərinin və s.) hazırlanması, zəruri hallarda alınması, onların tərcüməsi və tətbiqi işi davam etdirilmiş, orta ixtisas təhsili üzrə 13 adda dərslik, dərs vəsaiti hazırlanaraq çapa təqdim edilmişdir.
- 2.5.2. bəndinə əsasən siyahıya uyğun olaraq zəruri ədəbiyyatların və interaktiv tədris kurslarının elektron versiyasının hazırlanması üzrə iş davam etdirilmiş, 25 adda elektron tədris vəsaiti hazırlanmışdır.
- 2.7. bəndinə əsasən orta ixtisas təhsili müəssisələrinin veb-portalı 5 pilot təhsil müəssisəsində yaradılmışdır.

**-** 2.8. Orta ixtisas təhsili müəssisələrində kredit sisteminin tədbiqi ilə bağlı «Orta ixtisas təhsili müəssisələrində tədrisin kredit sistemi ilə təşkili Qaydaları» hazırlanaraq təsdiq üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinə təqdim olunmuşdur.

**-** 2.10. orta ixtisas təhsili müəssisələrində kurrikulum və qiymətləndirmə mexanizmlərin və buna müvafiq struktur bölmələrin yaradılması işi davam etdirilmiş, müəllimlər üçün «Mədəd» kurslarında treninqlər təşkil edilmişdir.

«**O**rta ixtisas təhsili müəssisələri tələbələrinin biliyinin qiymətləndirilməsinin çoxballı sistemi haqqında əsasnamə»yə uyğun olaraq 2008-ci ildən eksperiment şəklində tətbiqinə başlanılmış bu qiymətləndirmə sistemi 2012-ci ildə də davam etdirilmişdir. Bununla əlaqədar olaraq şöbənin əməkdaşları orta ixtisas təhsili müəssisələrində olmuş, bu sistemin tətbiqi vəziyyətini öyrənmiş, müəllim və tələbələrə lazımi metodiki köməklik göstərmişlər.

**İ**ş planına müvafiq olaraq əvvəlki illərdə olduğu kimi, 2012-ci ildə də orta ixtisas təhsili müəssisələrinə həm əsas, həm də orta təhsil bazasından tələbə qəbulu planı hazırlanmışdır. Plan tərtib edilərkən orta ixtisas təhsili müəssisələrinin təklifləri, hər bir ixtisas üzrə nazirlik və təşkilatlardan alınmış tələbat haqqında məlumat, ötən ildəki tələbə qəbulunun nəticələri nəzərə alınmışdır. Orta ixtisas təhsili üzrə hazırlanmış qəbul planının layihəsi Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edilmişdir.

**2011/2012**-ci tədris ilində orta ixtisas təhsili müəssisələrində imtahan sessiyasının təşkili və gedişi şöbənin diqqət mərkəzində saxlanılmışdır. Belə ki, bütün təhsil müəssisələrində qərargahlar yaradılmış və həmin qərargahlar Təhsil Nazirliyinin «Mərkəzi operativ qərargah»ı ilə əlaqəli fəaliyyət göstərmişdir.

Hesabat ilində orta ixtisas təhsili müəssisələrində buraxılış yekun Dövlət Attestasiya Komissiyaları sədrlərinin seçilib təyin olunması işi davam etdirilmişdir.

Hesabat dövrünndə Nümunəvi Nizamnaməyə uyğun hazırlanmış bir sıra kolleclərin təqdim etdikləri Nizamnamə layihələrinə baxılmış və rəy verilmişdir.

Şöbənin əməkdaşları tərəfindən Təhsil Nazirliyində hazırlanan «Təhsil ensiklopediyası»na orta ixtisas təhsili müəssisələri ilə əlaqədar daxil ediləcək məlumatlar hazırlanmışdır.

**H**esabat dövründə şöbə əməkdaşlarının iştirakı ilə orta ixtisas təhsili üzrə aşağıdakı **konfranslar** keçirilmişdir:

- Astara Pedaqoji Kollecində “H.Əliyev və Azərbaycan təhsili” mövzusunda elmi-praktiki konfrans. May – 2012.
- Azərbaycan Milli Konservatoriyası tərkibində Musiqi Kollecində F.Əmirovun 90 illik yubileyi ilə əlaqədar Orta ixtisas musiqi məktəbləri tələbələrinin Respublika konfransı. Oktyabr – 2012.
- Azərbaycan Dövlət Pedaqoji Kollecində “İntellekt əsri – müəllim hazırlığının komponentləri, effektivlik...” mövzusunda elmi-praktik konfrans. Noyabr – 2012.
- Beynəlxalq Muğam Mərkəzində Bülbül adına orta ixtisas musiqi məktəbi tələbələrinin Bülbülün anadan olmasının 115 illiyinə həsr olunmuş festival. Aprel – 2012.
- Bülbül adına orta ixtisas musiqi məktəbində Y.Haydnın 280 illiyi və N.Paqanininin 230 illiyinə həsr olunmuş pianoçuların və simli igaçıların festival. Aprel – 2012.
- Bülbül adına orta ixtisas musiqi məktəbində Bülbülün anadan olmasının 115 illiyinə həsr olunmuş milli alətlər ifaçılarının və xanəndələrin I Respublika müsabiqəsi. Oktyabr – 2012.

- Şöbənin iş planına uyğun olaraq Azərbaycan Respublikası Təhsil Nazirliyinin «Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya»nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planında ali və orta ixtisas təhsili sahəsində 2012-ci il üçün nəzərdə tutulan tədbirlər əsasən həyata keçirilmişdir.

Bununla bağlı təhsildə şəffaflığın təmin olunması, cavabdehlik hissinin gücləndirilməsi, məsuliyyətin artırılması məqsədilə qış və yay imtahan sessiyaları dövründə tələbələr arasında anket sorğuları keçirilmiş, nəticələr müzakirə olunmuş, nazirliyin «Qaynar xətt» xidmətinə ali və orta ixtisas təhsili ilə bağlı daxil olan 300-ə yaxın müraciət şöbə əməkdaşları tərəfindən araşdırılmış və cavablandırılmışdır.